**AMEA Riyaziyyat və Mexanika İnstitutunu "Beynəlxalq əlaqələr"**
**şöbəsinin 2021-cİ il I yarımilliyi üzrə fəaliyyəti haqqında**

# H E S A B A T

2021-ci il I yarımilliyində dövründə Riyaziyyat və Mexanika İnstitutunun elmi işçiləri xaricə ezam olunmayıb və İnstituta xaricdən gələn həmkarlar olmamışdır.

2021-ci ilin birinci yarımilliyində UNESCO-nun İpək Yolu Proqramı tərəfindən gənc tədqiqatçılara İpək Yolu üzərində yerləşən ölkələrin ortaq mədəniyyətini öyrənməyə şərait yaradan "İpək Yolları Gənc Tədqiqat Təqaüdü" adlı layihəyə start verilmişdir və İnstitutu əməkdaşların arasında tədqiqat qrantı haqqında məlumat verilmişdir.

Həmçinin Avstriya Elmlər Akademiyası bütün sahələr üzrə müxtəlif ölkələrdən perspektivli gənc tədqiqatçılara dəstək göstərmək məqsədilə Joint Excellence in Science and Humanities (JESH) mobillik proqramı elan olunmuşdur.

Bununla yanaşı birinci rübdə "Make Our Planet Great Again" (MOPGA) üzrə dördüncü çağırış proqram elan olunmuşdur və İnstitutunun gənc alimlərin arasında Proqram haqqında məlumat yayılmışdır.

Avstriya Elmlər Akademiyası bütün sahələr üzrə müxtəlif ölkələrdən (Azərbaycan daxil olmaqla) perspektivli gənc tədqiqatçılara dəstək göstərmək məqsədilə Joint Excellence in Science and Humanities (JESH) mobillik proqramını təklif olunmuşdur. Proqram PhD dərəcəsini 10 ildən yuxarı olmayan müddətdə alan gənc tədqiqatçılar üçün nəzərdə tutulmuşdur.

Yeni Erasmus+ proqramı (2021-2027) İnstitut əməkdaşlarına təqdim olunub. Bu Proqram çərçivəsində növbəti 7 il ərzində aparılacaq işlərin və istiqamətlərin konturları nəhayət ki tam təsdiqləndi və artıq dünən proqramın ilk 3 komponenti üzrə yeni çağırışlar elan olundu. Digər yeniliklərdən Erasmus+ proqramında artıq

Peşə Təhsili üzrə Potensialın Artırılması yer alacaq. Bu proqram üzrə ilk çağırış cari ilin sonuna doğru elan olacağı təqdirdə növbəti il üçün nəzərdə tutulub.

Avropa Komissiyasının Horizon Europe üzrə Milli Əlaqələndirici Şəxslər Şəbəkəsinin koordinatoru olan AMEA-nın RMİ tədqiqatçıları, həmçinin dövlət və özəl sektorlardan digər maraqlı tərəfləri Horizon Europe Məlumat Günündə iştirak etmişlər.

Şöbə müdiri,

t.e.n., dosent  Eldar Abbasov